BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2015

UOT 727/479.243/”94-99”

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ TARİX VƏ ƏDƏBİYYAT ELMİNİN ÖYRƏNİLMƏ SƏVİYYƏSİ

**B.E.NƏBİYEV**
***Bakı Dövlət Universiteti***
***bextiyar030@hotmail.com***

*1918-ci ilin mayında Azərbaycan Demokratik Respublikasının yaranması tarixə də marağı artırdı. Bu dövrdə Azərbaycanın keçmişinə dair ümumiləşdirilmiş əsərlər yazılmasına diqqət artdı. 1920-ci illərdə bu sahədə işlər genişləndi. Y.Paxomov, R.İsmayılov, C.Zeynaloğlu, V.Sısoyev, V.Bartold, Q.Passek və B.Latininin əsərləri bu qəbildəndir. Bu əsərlərin əksəriyyətində, xüsusilə Y.Paxomov, V.Sısoyev, Q.Passek və B.Latıninin əsərlərində bilavasitə Şimali Azərbaycan tarixi nəzərdən keçirilirdi. Lakin bütövlükdə 1920-ci illərdə Azərbaycan tarixi anlayışı və onun məzmunu tam müəyyənləşdirilə bilinmədi.*

**Açar sözlər:** çağdaş Azərbaycan, V.Bartold, tarixi konsepsiya, tarix cəmiyyəti, ədəbiyyat nəzəriyyəsi

M.Ə.Rəsulzadə “Çağdaş Azərbaycan tarixi “adlı çıxışında demişdir: ”Milli Azərbaycan Respublikasının qurulduğu 1918-ci ilin 28 mayı qədər çağdaş Azərbaycan tarixinin ünlü bir günü yoxdur, çağdaş Azərbaycan tarixinin ibtidasını on doqquzuncu əsrin başlanğıcından saya bilərik. Bu tarixdən bəri Azərbaycan cəmiyyəti düşdüyü çətin şəraitə baxmayaraq orta çağların əsaslarını zehniyyətlərindən sıyıraraq çağdaş mədəniyyətə doğru getmişdir. Həmin tarixdə, bir necə feodal xanlıqlar halında istilaya uğrayan Azərbaycan 1918-ci ilin 28 mayında beynəlxalq həyat səhnəsinə tək bir millət olaraq çıxdı və respublika şəklində qurduğu dövlətin istiqlalını bütün cahana elan etdi. Çağdaş Azərbaycan tarixi ancaq bu böyük hadisənin işığı altında həqiqətən tədqiq edilə bilər” Azərbaycan milli istiqlalının elan edilməsi və işdə həyata keçirilməsi Azərbaycan tarixinə tamamilə yeni baxış yaratdı, tarixə maraq genişləndi”. Azərbaycan tarixinin ADR dövrü öz rolunu bununla başa vurmadı. Əlamətdar haldır ki, 1980-ci illərin sonunda Azərbaycan Tarixinə artan tələbatın başlıca istiqaməti də məhz 1918-1920-ci illər dövrünə yönəlmişdir.

ADR dövrünün ədəbiyyatı həmin dövr tarixinin salnaməsi olmaqla qal-

mamış və bununla birgə hadisələrə tarixi qiymət verilməsi sahəsində də böyük nailiyyət qazanmışdır [8, 20-22].

ADR dövrünə uyğun gəlir. Çox maraqlıdır ki, burada hər hansı fundamental tarixi tədqiqatdan bəhs etmək mümkün deyil. Lakin bir neçə səhifədə, hətta ümumdövlət əhəmiyyətli sənədlərin bir neçə sətrində Azərbaycan tarixi kifayət qədər aydın və obyektiv şəkildə təqdim olnmuşdur.

Sovet hakimiyyətinin qurulması Azərbaycan tarixinə dair baxışlara da ciddi təsir göstərir. Marksist baxışlar təbii axarı ilə deyil, adminstrativ şəkildə qəbul etdirilir.

Müstəqil Azərbaycan Respublikasının qurulması tarixi baxışlarda yeni dəyişikliklərlə müşahidə olunur.

Beləliklə, Azərbaycan tarixinin elminin mürəkkəb bir yol keçdiyi ortaya çıxır. Burada müəyyən ənənədən çox tarixi dövrlərin təsiri ön plana çəkilir. Tarixi fikir müxtəlif vəziyyətə düşə bilən vahid xətt boyunca deyil, bəzən bir-biri ilə əlaqəsi olmayan və ya onu inkar edən tsikillər şəklində ortaya çıxır.

Dünya üzrə tarix cəmiyyətlərinin yaranmasının genişləndiyi dövrdə Şimali Azərbaycan Rusiya imperiyasının əsarəti altında idi. İmperiyanın mərkəzində tarix cəmiyyətləri yarandığı zamanda, milli ucqarlarda, xüsusilə müsəlmanlara münasibətdə vəziyyət daha acınacaqlı idi. Çar hökuməti Qafqazın xristian xalqlarına tarixi keçmişinin öyrənilməsi üçün təşkilatlanma imkanı verdiyi halda, digər xalqlara qarşı ayrı-seçkilik siyasəti həyata keçirirdi. Qafqazda yaradılmış tarix cəmiyyətləri, Bilavasitə gürcülər və ermənilərlə bağlı idi. 1873-cü ildə Qafqaz arxeologiya həvəskarları cəmiyyəti (Tiflis), 1881-ci ildə isə Qafqaz tarix və arxeologiya cəmiyyəti (Tiflis) yaradılmışdı. Çar hakimiyyəti dövründə üç erməni (Erməni etnoqrafiya cəmiyyəti (1906, Tiflis), Erməni tarix və arxeologiya cəmiyyəti (1913, Tiflis), Erməni qədim dövrünün qayğıkeşləri cəmiyyəti (1915, Moskva və bir gürcü (Gürcü tarix və etnoqrafiya cəmiyyəti (1907, Tiflis)) fəaliyyət göstərmişdi." [3, 71-74]

Azərbaycan Xalq Cümhuriyyəti dövründə, 1919-cu il dekabr ayının 29-da "**Müsəlman** Şərqini öyrənən cəmiyyət" yaradılmışdı. Azərbaycanda ali tarix təhsili burada Bakı Dövlət universitetinin açılması ilə əlaqədar olmuşdur. Universitetdə ilk mühazirə də tarixdən olmuşdur. Universitetin ilk rektoru V.İ.Razumovski (1857-1935) yazırdı ki, ilk dəfə L.A.Dubrovski ümumi tarixdən maraqlı mühazirə oxudu. Yeni böyük auiditoriya tələbələrdən başqa xeyli ziyalı, parlamentin üzvləri, hökumət şurasından olan şəxslər və başqa adamlarla dolu idi. Bu mühazirə, həmçinin çoxsaylı adam toplayan sonrakı mühazirələr həmişə gərgin diqqətlə dinlənilirdi.

Azərbaycan Demokratik Respublikası (1918-1920) fəaliyyət göstərdiyi qısa, lakin çətin və mürəkkəb şərait üzündən arxiv işində dəyişiklik yaratmağa imkan tapa bilmədi. Bununla birgə arxiv sənəd və materiallarının həm elmi, həm də praktik əhəmiyyəti nəzərə alınaraq, bu işin təşkili və həyata keçirilməsinə nail olmuşdu. ADR-in xarici işlər naziri Məmməd Yusif Cəfərovun 1919-cu il 13 oktyabr sərəncamı ilə müsəlmanlara münasibətdə Zaqafqaziyada-

kı rus siyasəti üzrə materialların toplanması və nəşri üçün Arslan Kriçinskinin sədrliyi ilə xüsusi komissiya (üzvləri: Məmməd Ağa oğlu Ağayev, Konstantin Sulkeviç, Əli Yusif o, çıxdıqdan sonra, Hüseyn bəy Mirzə Camalov) yaradılmışdı. Xüsusi komissiya Bakı şəhəri və onun hüdudlarından kənarda bir sıra arxivləri tədqiq etmişdi [6, 43-44].

Azərbaycanın yenidən istiqlaliyyətinə qovuşması ilə cəmiyyətin ictimai-siyasi həyatında olduğu kimi mədəniyyət və elm sferasında da köklü dəyişikliklərin əsası qoyuldu. Ədəbiyyatın təkmetodluqdan, ideoloji təzyiq və diktələrdən xilas olması onun inkişafı üçün şərait yaratdı. Belə ki, əvvəllər adları, əsərləri yasaq olunmuş bir çox sənətkarların yaradıcılıq irsinin öyrənilməsi üçün imkanlar açıldı. Son illərdə həyatının mühüm bir mərhələsini mühacirətdə yaşamış olan Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cəfəroğlu, Mirzə Bala Məmmədzadə, Hüseyn Baykara, Ümmülbanu (Banin), Almas İldırım, Abay dağlı, Kərim Odər və digər sənətkarların yaradıcılıq irsinin öyrənilməsi sahəsində atılmış ciddi addımlar bunun canlı örnəyidir.

Həmçinin əvvəllər yaradıcılıq irsi yanlış ideoloji müstəvidə araşdırılmış olan Hüseyn Cavid, Yusif Vəzir Çəmənzəminli, Cəfər Cabbarlı, Əhməd Cavad, Ümgülsüm Sadıqzadə, digər yazıçı və şairlərin milli dəyərlər konteksində öyrənilməsi məhz istiqlal məfkurəsinin işığında gerçəkləşmişdir. Onu qeyd etmək lazımdır ki, son illərdə ayrı-ayrı ədəbi şəxsiyyətlərin yaradıcılıq irsinin öyrənilməsi ilə yanaşı, əvvəllər araşdırılmasına ciddi yasaqlar qoyulmuş tarixi dövrlərin, mərhələlərin, problemlərin tədqiq olunması istiqamətində də müəyyən addımlar atılmışdır. Xüsusilə, Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövrünün elm və mədəniyyətinin öyrənilməsinə artan maraq bu baxımdan diqqəti çəkməkdədir [11, 33-34].

Bəşər sivilizasiyasının istənilən mərhələsində hər hansı bir xalqın tarixi taleyi ilə mədəni yaddaşı üst-üstə düşəndə qeyri-adi bir fenomen baş verir. İnsanların tarixi keçmişlərinə sahib çıxması, milli talelərini dərindən dərk edərək onu təsvirə çalışması və ən əsası, vahid ideya ətrafında birləşməsi, bir sözlə, tarixi vacibliyin yüksək elmi-mədəni və milli şüur səviyyəsində qavranılışı “böyük ədəbiyyat”ın yaranması ilə şərtlənir.

Belə bir fenomen elmi yaddaşının tarixi islamdan da çox öncələrə gedən Azərbaycan xalqının klassik elmi-mədəni düşüncəsində də baş verdi.

Milli mədəni-elmi düşüncəmizin 1918-1920-ci illəri əhatə edən və tarixə intibah dövrü kimi daxil olan mərhələsi özünə qədərki bütün dövrləri özündə birləşdirərək yeni bir mərhələyə – son dərəcə milli, xəlqi, məxsusi və bir o qədər də qlobal, yetkin, kamil ədəbiyyat səviyyəsinə yüksəlir və “Ümumşərq ədəbiyyatı” ünvanını qazanır.

Milli-azadlıq duyğusu, istiqlal ideyası bu ədəbiyyatın əsasını təşkil edirdi. Bu məkanda azadlıq ideyası təkcə cografi mənada deyil, tarixi-mədəni konteksdə də dərk edilirdi və bu proses – etnik yaddaşa, milli tarixə qayıdış şəklində təzahür edir [4, 16-18].

Milli istiqlal ideyalarının intişarı ilə, Azərbaycan Xalq Cümhuriyyətinin quruluşu və çöküşünə qədərki mərhələ tarixi baxımdan da uzun bir zaman müddətini əhatə etmirdi. Ancaq həmin dövrün tarix, ədəbiyyat, mədəniyyət və dövlətçilik anlayışımıza gətirdiyi töhfələr bir, ya da iki yüz ilə sığmayacaq böyüklükdə idi. Bu böyüklüyün fərqinə varıldığındandır ki, həmin tarix bizlərə yetmiş il yasaqlanır və Azərbaycan xalqının neçə minillik taleyində onun etnik yaddaşı, elmi-fəlsəfi təfəkkürü, milli-mənlik şüuru, etik dəyərlərinin bu qədər vahid və sistemli şəkildə ortaya çıxdığı bir dövr tarix səhifələrindən silinir. Beləliklə də, Azərbaycan Xalq Cümhuriyyətinin bitdiyi, sovet imperiyasının qurulduğu tarix ötən əsrin 20-ci illərinin başlandığı tarix hesab olunur. Arada qalan iyirmi üç ayın tarixini yaradan və çiyinlərində daşıyanlar vətən xaini damğası ilə damğalanır, o dövrü əks etdirən sənədlər saxtalaşdırılır və bu tarix düz yetmiş il ərzində təhrif olunmuş şəkildə təbliğ edilir.

Buna görə də Azərbaycan Xalq Cümhuriyyəti həyatının bədii ədəbiyyatda təsvirinin yenidən qovuşduğumuz müstəqillik dövründə tədqiqinə ciddi ehtiyac duyulmaqdadır. Bütün dövrlərin ictimai-siyasi hadisələrinin mövcud dövrün bədii ədəbiyyatında əks olunması prizmasından çıxış etsək, milli istiqlal mücadiləsi tarixinin qaranlıq səhifələrinin aşkarlanması və uzun illər sovet ideologiyasının "vətən tarixi" deyə təbliğ etdiklərini təkzib etmək üçün bunun gərəkli olduğunu demək olar.

Ümumiyyətlə, ayrı- ayrı ədəbi şəxsiyyətlərin ədəbiyyatın inkişafındakı rolu, onların bu irəliləyişdəki təkanları danılmazdır. Milli istiqlal ədəbiyyatında özünəməxsus yer tutan və talelərinə mühacirlik ömrü yazılan elə şəxsiyyətlərimiz var ki, Cümhuriyyət tarixinin öyrənilməsi baxımından onların əsərləri mühım əhəmiyyət kəsb edir. Cümhuriyyət ədəbiyyatını yaradan və tənzim edən Məhəmməd Əmin Rəsulzadə, Əli Bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Üzeyir bəy Hacıbəyov, Cəfər Cabbarlı,Yusif Vəzir Çəmənzəminli məhz belə münəvvər şəxsiyyətlərdəndir. Onların Cümhuriyyət ədəbiyyatı konteksində tanıtmağa və müdafiə etməyə çalışdıqları bir türk obrazı var – özünü bilən, özünə güvənən, bəşəri dəyərlərə bağlı, islami düşüncənin ən gözəl döyüşçüsü olan hürriyyəti üçün hər şeydən keçən, vətəninə və ulusuna son dərəcə bağlı bir türk obrazı. Bunun üçün yorulmadan proqramlar hazırlayıb həyata keçirən bu ədəbi şəxsiyyətlərin ən böyük arzusu – dünya coğrafiyasına yayılan türkləri vahid Turan dövləti adı altında birləşdirmək idi. Eləcə də, türkçülük, turançılıq və islamçılıq ideyalarının həmin dövrün bədii nəsrində inikası xüsusilə araşdırılmağa dəyər hesab olunur. Ümumi müddəalar şəklində göstərilən bütün bu məsələləri yaradıcılıq süzgəcindən keçirərək tədqiq etmək mümkündür.

Bu ümumi xülasə "Azərbaycan Cümhuriyyətinin bədii nəsrdə təcəssümü" mövzusunun nə dərəcədə aktual olduğunu göstərməkdədir.

Məqalənin elmi yeniliyi hər şeydən əvvəl, bu mövzuda ilk dəfə olaraq ciddi, sistemli tədqiqat əsərinin yazılması ilə bağlıdır. İndiyədək Azərbaycan Xalq Cümhuriyyəti dövrü bu və ya digər şəkildə tədqiqat obyektinə çevrilsə də, bu dövrün bədii ədəbiyyatda təcəssümünə diqqət yetirilməmiş, bu sahədə hər

hansı bir tədqiqat əsəri yazılmamışdır. Xüsusilə, ədəbiyyatşünaslıq konteksində bu səpgidə tədqiqat aparılmamışdır.

Məqalənin elmi yeniliyini səciyyələndirən cəhətlərdən biri bəhs olunan problemin ayrı-ayrı mərhələlər fonunda təhlilə cəlb olunmasıdır. Bu cür yanaşma mövzunun tədqiqinin bütünlüklə əhatə olunmasına imkan vermişdir.

Məqalədə sovet dövrü Azərbaycan nəsrində Cümhuriyyət həyatının bədii əksi ciddi şəkildə incələnmiş, həmin illərdə sovet ideoloji stereotiplərinin qəlibləri çərçivəsində yaranmış əsərlərdə mövzu ilə bağlı məqamların üzə çıxarılmasına çalışmışdır.

Məqalədə ilk dəfə olaraq Azərbaycanın istiqlaliyyət əldə etməsindən sonra yazılmış roman, povest və hekayələrdə Cümhuriyyət dövrünün bədii təcəssümü problemi araşdırılmışdır.

Məqalədə Azərbaycan mühacirət ədəbiyyatında yaranan bədii nəşr nümunələrində Cümhuriyyət həyatının təcəssümü ciddi şəkildə araşdırılmışdır. Məqalənin yazılmasının əsas məqsədi Azərbaycan bədii nəsrində Cümhuriyyət dövrünün təcəssümünün tədqiq edilib üzə çıxarılmasıdır. 1918-1920-ci illərdə, sovet məkanında və nəhayət, çağdaş dövrümüzdə Azərbaycan Cümhuriyyətinin elmi və bədii həllini tapmaq üçün o dövrə qədərki konsepsiyaları, eləcə də həmin dövrdə mövcud olan fikirləri müqayisəli tədqiqata cəlb etmək əsas məqsədimizə xidmət edir [8, 98-99].

Məqalədə Azərbaycan Xalq Cümhuriyyəti dövrünün bədii ədəbiyyatda təcəssümünü araşdırmaq məqsədilə bir sıra vəzifələrin həyata keçirilməsinə çalışılmışdır. Belə ki, məqalədə Azərbaycan Xalq cümhuriyyəti mövzusu bədii nəsr konteksində geniş və sistemli şəkildə araşdırılmış, türkçülük, turançılıq və islamçılıq ideyalarının inikası izlənilmiş, bədii düşüncədə istiqlal mücadiləsi tarixinə baxış və münasibət nəzərdən keçirilmişdir. Bununla yanaşı, Azərbaycan mühacirət ədəbiyyatında yaranmış bədii nəsr nümunələrində Cümhuriyyət həyatının təcəssümünə diqqət yetirilmişdir. Eyni zamanda, Azərbaycan nəsri konteksində Cümhuriyyət dövrü tarixi şəxsiyyətlərinin bədii obrazı məsələsi səciyyələndirilmişdir.

Tədqiqatın əsas obyekti Azərbaycan bədii nəsrində Cümhuriyyət mövzusunun təcəssümü məsələsidir. Azərbaycan ədəbiyyatı üçün qlobal və özünəməxsus hadisə olan Azərbaycan Cümhuriyyətinin həmin dövr üçün aktual olan bir sıra müəlliflərin yaradıcılığında nə dərəcədə əks olunması tədqiqatın başlıca obyektidir.

Əsas tədqiqat predmeti müxtəlif müəlliflərin mədəni və elmi yaradıcılıqları olmaqla lazım gəldikcə onların daxil olduqları və formalaşdıqları kontekstə də müraciət edilmişdir.

Cümhuriyyət dövrü milli istiqlal məfkurəsi və onun bədii ədəbiyyatda təcəssümünü tədqiq edən bir sıra araşdırmalar yaranmışdır. Xüsusən, ötən əsrin doxsanıncı illərindən başlayaraq, yeni Azərbaycanın müstəqillik qazanmasından sonra bu səpgidə yazılan araşdırmalar Cümhuriyyət ədəbiyyatının özünəməxsusluğunun üzə çıxarılması və ədəbi aləmə məlum olmayan bu dövrün bə-

dii irsinin və sənədli materiallarının aşkar edilməsi baxımından təqdirəlayiqdir [1, 54-56].

Onu da qeyd edək ki, keçmiş sovet məkanında bu mövzu ya ümumiyyətlə araşlırma obyekti olmamış, ya da ki, qeyri-obyektiv yanaşmalarla səciyyələnmişdir. Yalnız tarixi yaddaşa qayıdış dövründə Azərbaycan Cümhuriyyətinin qaranlıq səhifələri vərəqlənərək o zamanki mühacirlərin yazdığı tarixi əsərlər aşkarlanmış və yeni mərhələdə həmin dövrün həqiqətlərini əks etdirən monoqrafik tədqiqatlar meydana gəlmişdir. Bu baxımdan "Azərbaycan istiqlal mübarizəsi tarixi" (Hüseyn Baykara, 1992), "Milli Azərbaycan hərəkatı" (Mirzə Bala Məmmədzadə, 1992)," Azərbaycan Milli hərəkatı" (Xaqani Məmmədov, 1996), "Azərbaycan Demokratik Respublikası" (Nəsib Nəsibzadə, 1990) və s. kimi əsərlər xüsusilə diqqəti cəlb edir.

Milli istiqlal dövrünün ədəbi yöndə araşdırılması baxımından Azərbaycan ədəbiyyatşünaslığında mühüm rolu olan görkəmli alim Yaşar Qarayevin xidmətləri əvəzsizdir. O, "Tarix: yaxından və uzaqdan" əsərində yaxından və uzaqdan görünən tarixlərin işığında Cümhuriyyət yaddaşımıza da nəzər salır və müxtəlif başlıqlar altında mümtaz şəxsiyyətlərinin ədəbi portretlərinin yaradır (86).

Kollektiv nəşr olan "Azərbaycan Xalq Cümhuriyyəti" (19) monoqrafiyasında da həmçinin, onun işlədiyi "Cümhuriyyətə qədərki ədəbiyyatda milli intibah və istiqlal ideyaları", "İstiqlal düşüncəsi Xalq Cümhuriyyəti dövründə; ədəbiyyat, dil, mədəniyyət quruculuğu" (ədəbiyyat hissəsi) hissələri xüsusi tədqiq manerası ilə seçilir.

Cümhuriyyət dövrü ədəbiyyatının araşdırıcılarından olan filologiya elmləri doktoru Aybəniz Əliyeva (Kəngərli) "Azərbaycan (1918-1920) qəzetində ədəbiyyat məsələləri" adlı tədqiqatında "Azərbaycan" qəzeti fonunda həmin mərhələnin ictimai-siyasi və mədəni həyatını, eləcə də mövcud dövrün poeziya və ədəbi tənqid məsələlərini öyrənməyə çalışır.

Bundan başqa, Alxan Bayramoğlunun "Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat" adlı monoqrafiyasında Cümhuriyyət dövrünün bizə məlum olmayan bədii nümunələrini arayıb aşkar edir. Eyni zamanda, həmin dövrün tarixi-ictimai və siyasi xülasəsini verir. Tapılan nümunələr içərisində Seyid Hüseynin "Yaşıl qələm" mükafatına layiq görülmüş "Həzin bir xatirə. İsmailliyə" hekayəsi dərin lirizmi və psixoloji təsvir mahiyyəti ilə seçilir [8, 38-40].

Cümhuriyyət məfkurəsinin ədəbi-nəzəri fikirdə populyarlaşmasında filologiya elmləri doktoru, professor Vaqif Sultanlının "Azərbaycan mühacirət ədəbiyyatı" monoqrafiyası, "Azadlığın üfüqləri" adlı məqalələr toplusu və digər səpgili araşdırmalarını da qeyd etmək lazımdır. Bu araşdırmalarda Cümhuriyyət ədəbiyyatının diqqətdən kənarda qalmış bir qolu – mühacirətdə yaranmış ədəbi-nəzəri irsi tədqiqata cəlb edilmişdir. Tədqiqatçının milli istiqlal mücadiləsi tarixində istər irəli sürdükləri ideologiya, istərsə də yaratdıqları bədii nümunələrlə əvəzsiz rol oynayan Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Mirzəbala Məmmədzadə, Məhəmməd Əmin Rəsulzadə, Abay Dağlı, Ümmül-

banu (Banin) və başqa müəlliflər haqqındakı araşdırmaları yeniliyi və orijinallığı ilə diqqəti cəlb etməkdədir.

Uzun illər ətrafında gedən mübahisələrin səngimək bilmədiyi və ictimaiyyətə Qurban Səid imzası ilə təqdim olunan "Əli və Nino" tarixi romanı ilə bağlı araşdırmalarda da Cümhuriyyət həyatının bədii nəsrdə təcəssümünə diqqət yetirilmişdir.

İlk dəfə 1973-cü ildə Vyanada alman dilində nəşr olunan bu romanın müəllifinin kimliyi məsələsi təkcə Azərbaycanda deyil, bütün dünyada, o cümlədən qonşu ölkələrdə də böyük polomika mənbəyidir. Bir qisim tədqiqatçı bu əsərin tarixi romanlar ustası Yusif Vəzir Çəmənzəminliyə, digər qismi isə Məhəmməd Əsəd bəy və qurban Səid imzası ilə əsərlər yazan, 1920-ci ildə Bakını tərk etmiş, milliyyətcə yəhudi olan Leo Nessinbauma məxsus olduğunu iddia etməkdədir.

Bu istiqamətdə gedən araşdırmalarda gərgin və davamlı axtarışları ilə seçilən ədəbiyyatşünas-alim Pənah Xəlilovun "Əli və Nino problemləri" kitabı xüsusi maraq doğurur. Bu kitab müəllifin "Əli və Nino" romanı haqqında müxtəlif illərdə mətbuat səhifələrində dərc olunmuş məqalələrin məcmusudur.

Burada, Pənah Xəlilov əsərin Yusif Vəzir Çəmənzəminli qələminin məhsulu olması fikrini maraqlı faktlarla təsdiq etməyə calışır. Nizami Cəfərov, Tofiq Hacıyev, Şamil Cəmşidov, Vasif Məmmədəliyev və Anar kimi nüfuzlu alim və yazıçılarımız da Pənah Xəlilovun elmi araşdırmalarını dəstəkləyərək "Əli və Nino" romanının məhz Yusif Vəzir Çəmənzəminliyə məxsus olduğunu təsdiləyirlər.

Əsərin atribusiyasının məqalənin tədqiqat obyektinə bir o qədər dəxli olmasa da, roman məzmun cəhətdən araşdırmamızla birbaşa əlaqələnir. Xüsusən, romanda bariz şəkildə meydana çıxan Cümhuriyyət həyatının təsviri, iki bir-birinə zidd milli xarakterin qarşıdurması, Asiya və Avropa mədəniyyətlərinin müqayisəsi və əsərin ümumi ruhuna hakim olan milli azadlıq çağırışları kimi aktual problemlər nəzər nöqtəsinə çevrilmişdir [5, 94-96].

Məzmunundan daha çox müəlliflik məsələsi böyük rezonans doğuran "Əli və Nino" professor Pənah Xəlilovun araşdırmalarının nəticəsi olaraq Azərbaycan ədəbi ictimaiyyətinin əksər nüfuzlu nümayəndələri tərəfindən artıq öz həllini tapmış məsələ hesab olunsa da bu istiqamətdəki düşüncələrin daha da aydınlaşması və müəyyənlik qazanması üçün Məhəmməd Əsəd bəy və Qurban Səid imzalı digər 14 əsərin geniş tədqiqinə böyük ehtiyac vardır.

Eləcə də Cümhuriyyət dövrü ədəbi-tarixi şəxsiyyətlərinin və onların yaradıcılıqlarının xarakterik cizgilərini özündə əks etdirən "Ağaoğlular" (Vilayət Quliyev)," Məmməd Əmin Rəsulzadə" (Şamil Qurbanov), "Məhəmməd Əmin Rəsulzadənin ədəbi dünyası", "Ağır yolun yolçusu" (Vaqif Sultanlı), "Məhəmməd Əmin Rəsulzadə" (Nəsiman Yaqublu), "Nəriman Nərimanov dünyası" (Şamil Qurbanov)," Nəriman Nərimanovun yaradıcılıq yolu" (Teymur Əmin Rəsulzadə" (Nəsiman Yaqublu), "Nəriman Nərimanov dünyası" (Şamil Qurbanov)," Nəriman Nərimanovun yaradıcılıq yolu" (Teymur Əhmədov)," Ədəbiy-

yatla yaşayıram" (Tofiq Hüseynoğlu) kimi monoqrafik tədqiqatlara yeri gəldikcə istinad edilmişdir.

Məqalə nəzəri istinad baxımından Azərbaycan ədəbiyyatının analoji materiallarına, müxtəlif sayda nümunələrinə əsaslanır. Bu baxımdan xüsusən 1918-1920-ci illərdən bu yana Azərbaycan, eləcə də mühacirət ədəbiyyatşünaslığında problemlə bağlı ən səciyyəvi fikir və mülahizələrə müraciət olunmuşdur.

Məqalənin əsas təhlil metodu tarixi və tipoloji müqayisə üsuludur. Bundan başqa, yeri gəldikcə sistem-struktur, analitik təhlil metodundan da istifadə edilmişdir. Məqalə nəzəri yanaşma üsulları və əldə olunan qənaətlərlə Cümhuriyyət dövrünün ictimai-siyasi və elmi-kulturoloji həyatı ilə bağlı araşdırma aparan müəlliflər üçün mənbə ola bilər. Tədqiqatın nəticələrindən ali məktəblərin humanitar fakültələrində yardımçı vəsait kimi istifadə oluna bilər. Onun nəticələrindən həmçinin, Cümhuriyyət tarixi, ədəbiyyatı, mədəniyyəti ilə məşğul olan mütəxəssislər də faydalana bilər. Eyni zamanda, tədqiqat işi gənc nəslin milli özünüdərk prosesində əhəmiyyətli rol oynaya bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Arxivinin 51 saylı –AXC Xalq Maarif Nazirliyinin Fondu
2. Azərbaycan Respublikası Dövlət Arxivinin 100 saylı – AXC Ədliyyə Nazirliyinin Fondu
3. Azərbaycan Respublikası Dövlət Arxivinin 970 saylı – AXC Xarici İşlər Nazirliyinin Fondu
4. Azərbaycan Respublikası Dövlət Arxivinin 894 saylı – AXC Daxili İşlər Nazirliyinin Fondu
5. AXC (1918-1920) Parlament. Stenoqrafik hesabatlar. I kitab, Bakı: Azərnəşr,1998,...səh., II kitab, Bakı: Azərnəşr, 1998, 992 s.
6. Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). Tərtib edənlər: V.Allahverdiyev, Ş.Mehdiyev. Bakı: Gənclik, 1990, 96 s.
7. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. I c. Bakı: Lider, 2004, 440 s.; II c, Bakı: Lider, 2005, 472 s.
8. Bammat H.Qərb mədəniyyətinin inkişafında müsəlmanların rolu. Bakı, 1994
9. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992, 276 s
10. Çəmənzəminli Y.V. Xarici siyasətimiz. Bakı: Gənclik, 1993, 45 s.
11. Çəmənzəminli Y.V. Tarixi, coğrafi və iqtisadi Azərbaycan. Bakı: Bakı Universiteti Nəşriyyatı,1993, 56 s.


## УРОВЕНЬ ИЗУЧЕНИЯ ИСТОРИИ И ЛИТЕРАТУРЫ В ПЕРИОД АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ


**Б.Э.НАБИЕВ**


## РЕЗЮМЕ


Образование Азербайджанской Демакратической Республики в мае 1918 года увеличил интерес и к истории. В эту эпоху увеличело внимание написания всеобщих трудов, относящиеся к прошому Азербайджана. В 1920-х годах расширились работы в этой сфере. Работы Й.Пахомова, Р.Исмаилова, Дж.Зейналоглу, В.Сисоева, В.Бартольда, Г.Пассека и Б.Латинина в этих рядах. Большенство этих работ, в частности, в трудах Й.Пахомова, В.Сисоева, Г.Пассека и Б.Латинена напрямую рассматривает историю Се-

верного Азербайджана. Но в целом, они не смогли уточнить понятие и содержание истории Азербайджана в 1920-х годах.

**Ключевые слова:** Модерн Азербайджана, В.Бартольд, историческая концепция, историческое общество, литературное ведомство

## THE STUDY OF THE SCIENCES OF LITERATURE AND HISTORY DURING THE AZERBAIJAN DEMOCRATIK REPUBLIC

**B.E.NABIYEV**

### SUMMARY

The foundation of the Democratic Republic of Azerbaijan in May 1918, increased interest to the history. During that pereod much attention was paid to the generalized works of history. In 1920 the works were expanded in this field. The works of Y.Pakhomov, R.Ismayilov, J.Zeynaloglu, V.Sisoyev, V.Bartold, G.Passek and B.Latinin review the history of the Northern Azerbaijan. Yet, in the 1920s, the concept of history and its contents couldn't be determined on the whole.

**Key words**: Modern Azerbaijan, V.Bartold, the conception of history, historian society, theory of literature